**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Hüseynov Nazim Hüseyn oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 183 və 323 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 13 saylı Əzizbəyov birinci seçki dairəsi üzrə Mərdəkan bələdiyyəsi üzvlüyünə namizəd Hüseynov Nazim Hüseyn oğlu və digərləri 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, adıçəkilən bələdiyyə üzrə daha çox səs toplamış bələdiyyə üzvlüyünə namizədlərin əhali arasında tanınmaması və sakinlərin məlumatına istinadən həmin şəxslərin səs toplamalarının qeyri-mümkün olmasını bildirmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır. Belə ki, 13 saylı Əzizbəyov birinci seçki dairəsi dairə seçki komissiyasının sədri M.S.Balaqardaşovun və digər komissiya üzvlərinin, həmin seçki dairəsinin Mərdəkan bələdiyyəsini əhatə edən seçki məntəqələri məntəqə seçki komissiyası üzvlərinin, bələdiyyə üzvülüyünə seçilməmiş namizədlər Alim Məmmədov, Əbiş İsmayılov, həmçinin müvafiq seçki məntəqələrində müşahidəçi olmuş Rəhimov Elxan Novruz oğlu, Soltanova Nigar Fikrət qızı, Hüseynova Gülnarə Abbas qızı, Babazadə Murad Babək oğlu, Hüseynova Elnarə Arif qızı və Məmmədov İlyas Ərəb oğlunun verdikləri izahatlardan Mərdəkan bələdiyyəsinə seçkilərdə səsvermənin qanunvericiliyin tələblərinə uyğun surətdə keçirildiyi, səsvermə prosesinə müraciətdə göstərilən şəxslərin heç bir müdaxiləsinin olmadığı, seçki qutularının açılması və səslərin hesablanması zamanı heç bir qanun pozuntusuna yol verilmədiyi, müvafiq seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair yekun protokolun dərhal tərtib edilərək, ictimailəşdirildiyi təsdiq olunmuşdur. Eyni zamanda 13 saylı Əzizbəyov birinci seçki dairəsi dairə seçki komissiyasının sədri M.S.Balaqardaşovun və komissiya üzvlərinin izahatında müraciət edən şəxslərin adından Mərdəkan bələdiyyəsinə seçkilərlə bağlı müvafiq dairə seçki komissiyasına heç bir şikayət və müraciətin daxil olmadığı da göstərilmişdir.

Bu səbəbdən də müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Hüseynov Nazim Hüseyn oğlu və digərlərinin 26 dekabr 2009-cu il tarixli 183 və 323 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Tamam Cəfərova |
| | Rövşən İsmayılov |
| | Oktay Hümbətli |